# Ağamir CAVAD-60



Hörmətli Ağamir Cavad!

Sizi - istedadlı şair-dramaturqu 60 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz səksəninci illərdə ədəbiyyata gələn istedadlı qələm sahiblərindənsiniz. İlk şeirləriniz Şəkər Aslanın xeyir-duası ilə "Lənkəran" qəzetində dərc olunmuş, daha sonra respublika mətbuatında bədii, elmi və publisistik yazılarınızla müntəzəm çıxış etməyə başlamısınız. Siz Lənkəran Dövlət Universitetində oxuya-oxuya "Cənub" televiziya şirkətində əmək fəaliyyətinizi davam etdirmisiniz. Universiteti bitirəndən sonra Lənkəran şəhər 1 saylı tam orta məktəbində və Lənkəran Dövlət Universitetində müəllim işləmisiniz. "Çəkdiyim şəkillərin ruhu", "Eşq işığı", "İşıq adam", "Yanmış budaq üstə oxuyan bülbül", "Ömrün eşq yolu", "Dəniz adam" kitablarınız sizə geniş oxucu auditoriyası qazandırmışdır. Sizin "Füzuli" dramınız N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Siz Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsində məsləhətçi işləməklə yanaşı, "Söz" və "Şəfəq" jurnallarının baş redaktor müavini kimi də səmərəli fəaliyyət göstərirsiniz. "Qızıl qələm" media mükafatına layiq görülmüsünüz.

Hörmətli Ağamir müəllim!

Sizi bir daha yubileyiniz münasibəti ilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 11 fevral.- S. 19.